# 198 Elm, səhiyyə, mədəniyyət və sosial təminat sahələrində çalışan işçilərin əmək haqlarının artırılması haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Elm, səhiyyə, mədəniyyət və sosial təminat sahələrində çalışan işçilərə dövlət qayğısının təzahürü olaraq onların rifahının yaxşılaşmasını və sosial müdafiəsinin daha da güclənməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Dövlət büdcəsindən maliyyələşdirilən elm, səhiyyə, mədəniyyət, sosial təminat idarələrində çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq vəzifə (tarif) maaşları 2000-ci il aprel ayının 1-dən 25 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 13 mart 2000-ci il
№ 359

Azərbaycan Respublikasının Qanunvericilik toplusu.-2000.- 31 mart, № 3.- S.1138.